◆ Zəlimxan Yaqub

## Zarafat Gəlməsın Sənə Bu Dünya

Zarafat eyləmə qurbanın olum,
Bu dünya zarafat meydanı deyil.
Qarışqa yerişi rahat yerişdi,
Bu meydan köhlən at meydanı deyil.

Oynadıb çox şeyi umar, oynama!
Etsədə ruhunu xumar, oynama!
Sən bu qumarbazla qumar oynama,
Zarafat gəlməsin sənə bu dünya.

Çox yerdə qəbrini qazan olaçaq,
Başın qaynamaqdan qazan olacaq,
Sanma yaşamağın asan olacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Qeybətin quyusu, hiylənin toru,
Sənə diri-diri göstərər goru,
Başın var başsızdan, başını qoru,
Zarafat gəlməsin sənə bu dünya.

Yoxsulluq yoxsulun bağrına oxdu,
Məzəsi toxların mədəsi toxdu,
Fil var qarışqaca hörməti yoxdu,
Zarafat gəlməsin sənə bu dünya.

Hələ neçə dəfə toyun olacaq,
Çox yerlerdə məkrli oyun olacaq,
Şir, pələng çevrilib qoyun olacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Ağlasan gözünü yaş aparacaq,
Xırmandan dənini quş aparacaq,
Dünyadan əlini boş aparacaq,
Zarafat gəlməsin sənə bu dünya.

Şeytan dura-dura şərlənər dəvə,
Qatır quyruğundə hərlənər dəvə,
Hirsindən yıxılıb tirlənər dəvə,
Zarafat gəlməsin sənə bu dünya.

Muğamı ağlamaq, valı ağlamaq,
Valın da qırılmış halı ağlamaq,
Fışqırıq çalmağın dalı ağlamaq,
Zarafat gəlməsin sənə bu dünya.

Yasın yeddisi var, üçü, qırxı var,
Qəbir yerinin də haqqı, nırxı var,
Ölümdən sonra da hələ qorxu var,
Zarafat gəlməsin sənə bu dünya.

*Zəlimxan*, həsrətin yeddi qat olar,
Həyatın qan dolu bir hyat olar,
Zarafat eyləsən şahın mat olar,
Zarafat gəlməsin sənə bu dünya.